

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 34 (23.676)

19 fevral 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İran nümayəndə heyəti ilə görüşüb



Fevralın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının İslami Şura Məclisinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının sədri Müctəba Zonnourinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri nümayəndə heyətini salamlamış, onları Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran arasındakı əlaqələrdən bəhs edən Ali Məclisin Sədri ikitərəfli əməkdaşlığın əhəmiyyətini vurğulamışdır.

Müctəba Zonnouri Ali Məclisin Sədri ilə görüşdən və Naxçıvana səfərindən məmnun olduğunu qeyd etmişdir. Ölkələrimiz arasındakı münasibətlərin inkişaf etdiyini bildirən qonaq İranın daim Azərbaycanın yanında olduğunu bildirmiş, tarixi qələbə münasibətilə Ali Məclisin Sədrinə təbriklərini çatdırmışdır.

Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Seyid Əhməd Hüseyni görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanla tanışlıq qonaqlarda xoş təəssürat yaradıb



Xəbər verdiyimiz kimi, fevralın 18-də İran İslam Respublikasının İslami Şura Məclisinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının sədri Müctəba Zonnourinin başçılıq etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına rəsmi səfərə gəlib. Səfər proqramı çərçivəsində qonaqlar Naxçıvan şəhərində yerləşən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar.

Möminə xatın türbəsi ilə tanışlıq zamanı bildirilib ki, Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan bu türbə 1186-cı ildə tikilib. İslam memarlığında ən uca və incə kompozisiyalı türbələrdən olan Möminə xatın türbəsi yeraltı, yəni sərdabə və yerüstü hissələrdən ibarətdir. Xalqın yaddaşında zaman-zaman "Atabəy günbəzi" adı ilə qalan abidənin baş tağında kufi xətti ilə bu sözlər yazılıb: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".

Kompleksdəki "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılıb, Ali Məclis Sədrinin 2015-ci il 2 fevral tarixli Sərəncamına əsasən bu mədəniyyət müəssisələri artıq "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi kimi fəaliyyətini davam etdirir. Qeyd olunub ki, muzeyin yerləşdiyi bina XVIII əsrə aid tarixi-memarlıq abidəsidir. Bina 1760-cı illərdə Naxçıvan xanı Ehsan xanın atası Kalbalı xan Kəngərli tərəfindən tikdirilib. Şərq memarlığı üslubunda tikilmiş abidə XVIII əsrin ortalarından XX əsrin əvvəllərinədək Naxçıvan xanlarının yaşayış yeri olub, həmçinin xanlığın siyasi iqamətgahı funksiyasını yerinə yetirib. Hazırda 9 ekspozisiya zalından ibarət olan muzeydə Naxçıvan xanlığı, Kəngərlilər sülaləsi, bu sülalənin tanınmış nümayəndələri haqqında yazılı materiallar, çap əsərləri, fotoşəkillər, xatirə əşyaları sərgilənir.

Həmin gün Culfa rayonuna səfər edən İran İslam Respublikasının İslami Şura Məclisinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının sədri Müctəba Zonnouri və onun başçılıq etdiyi heyət Culfa Dəmiryol Stansiyasının inzibati binası ilə tanış olub. Burada qonaqlara dəmiryol stansiyasının infrastrukturu haqqında məlumat verilib, Azərbaycan, Rusiya və İran İslam Respublikası ilə əlaqələrdə əhəmiyyətindən bəhs edilib.

Sonra qonaqlar Araz çayı üzərindən keçən Culfa-Culfa dəmiryol xəttinə baxıb, Culfa Gömrük İdarəsinin fəaliyyəti ilə tanış olub.

İran İslam Respublikasının İslami Şura Məclisinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının sədri Müctəba Zonnourinin başçılıq etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri həmin gün başa çatıb.

Qeyd edək ki, qonağı səfər zamanı İran İslam Respublikası İslami Şura Məclisinin deputatları Əli Əlizadə, Mahmud Abbaszadə Meşkini, İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin müavini Seyid Əhməd Musəvi Məliki, beynəlxalq ekspert Əlirza Pişəvər, İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Seyid Əhməd Hüseyni müşayiət ediblər.

✍ **Səbuhi HƏSƏNOV**

## Heydər Əliyev Muzeyi ümummilli liderimizin mənalı ömür yolunu və dövlətçilik irsini təbliğ edir



***Dünən Heydər Əliyev Muzeyinin yaradılmasının 22-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Oruceliyev qeyd edib ki, muxtar respublikamızda yaradılan muzeylər içərisində Heydər Əliyev Muzeyi xüsusi əhəmiyyət kəsb edir. Görkəmli ictimai-siyasi xadim, dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının şərksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 1999-cu il 18 fevral tarixdə imzaladığı Sərəncam əsasında Naxçıvan şəhərində yaradılıb.

Heydər Əliyev Muzeyi 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. 2005-2006-cı illərdə əsaslı olaraq yenidən qurulan muzeyin açılışı 20 dekabr 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə olub.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin göstərdiyi diqqət və qayğı sayəsində ulu öndərin həyat və fəaliyyətini, ölkəmizin tarixi taleyindəki əvəzsiz rolunu özündə ehtiva edən muzey respublikamızda analoqu olmayan bir məbədgaha çevrilmişdir. Muzey ulu öndərimizin dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ideyalarını təbliğ edərək, gəncləri ümummilli lider kimi xalqa, Vətənə və dövlətə sədaqətli olmağa ruhlandırır.

Tədbirdə Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, sənətşünas Fizzə Quliyeva "Heydər Əliyev və muzeylərimiz", Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və kitabxanaşünaslıq kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Məmməd Əliyev "Naxçıvan Muxtar Respublikasında muzey işinin təşkili və gənc kadrların hazırlanması" mövzularında çıxış ediblər.

Sonda Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanışlıq olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Əhalinin təbii qazla təminatı diqqətdə saxlanılır

*Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür.*



Muxtar respublikanın şəhər və rayon ərazilərindən daxil olan müraciətlərə əsasən 2021-ci ilin yanvar ayı ərzində "Naxçıvanqaz Servis" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 300 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 288-i əhali və 12-si qeyri-əhali abonentlərdir. Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilmiş, 1 fevral 2021-ci il tarixə 20 min 530, o cümlədən cari ilin yanvar ayında 48 qaz sayğacı quraşdırılmışdır. Bu işlər davam edir.

Ötən ay Qaz İstismar Xidmətinə tabe şəhər, rayon Qaz İstismarı idarələrinin qəza-dispetçer sahələrinin 104 nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 1040 çağırış daxil olmuşdur. Qaz şəbəkəsində 482 qaz sızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq şəkildə bu sızmalar aradan qaldırılmışdır.

Yanvar ayında yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar olaraq müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur.

Muxtar respublikada yerli Qaz İstismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir



Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər yanvar ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 6 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 169 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 73-ü əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqəti olma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 96 müraciət qeydə alınaraq icrası təmin edilmiş, həmin müraciətlərdən 23-ü elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul olunmuşdur.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

# Naxçıvanın təbii resurslarından biri – AĞBULAQ

## *Resurslara doğru gedildikcə o, sərvətə, xəzinəyə çevrilir*



**Turizm**

*Qədimliyi və təbii gözəllikləri ilə hər zaman qürur duyduğumuz Naxçıvanımız bir-birindən səfalı, bənzərsiz, hər fəslinin öz hüsnü ilə bu yerlərə gələnlərdə, bu gözəllikləri görənlərdə unudulmaz təəssüratlar yaradır. İnsanın təsəvvürünə belə, gətirmədiyi təbii, zəngin gözəlliklərlə əhatə olunan, onu yalnız görəndən sonra, doğrudan da, İlahinin bir möcüzəsi olduğunu təsdiqlədiyimiz bölgələrimizdən biri də Ağbulaqdır. Enişində saf, şaqraq ağ bulaqları ilə yuxarılara doğru qalxdıqca ağ buludları birləşən, dağları kəndə arxa, torpağı insanlarına dayaq olan bu qədim yurd yeri, həqiqətən, bir İlahi bəxşişidir. Şəfalı buz suları, təmiz havası, bol nemətli dağ-daşı, min bir dərdə dərman gül-çiçəkli düzləri ilə Ağbulaq bir təbiət ensiklopediyasıdır, desək, yanılmarıq...*

### *Pioner düşərgəsindən xatirələr...*

Ağbulaq Xizək Mərkəzi istifadəyə verilərkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ***"Ağbulaq kəndi Sovetlər Birliyi dövründə də havasına və təbiətinə görə mütəxəssislərin diqqətini cəlb etmiş, burada məktəblilərin yay düşərgələri təşkil olunmuşdu.***



***Muxtar respublikanın müxtəlif məktəblərindən olan şagirdlər yay tətilini burada keçirib, kəndin təbiəti ilə tanış olurdular"*** fikirləri ilə biranlıq xəyalən 1980-90-cı illərin Ağbulağına – pioner düşərgəsinə qayıtdım. Qardaşımla yay tətilini bir neçə dəfə həmin pioner düşərgəsində keçirmişdik. Yadımdadır, Naxçıvan şəhərindən, digər rayonlardan da olan məktəbliləri gətirən avtobus rayon mərkəzindən keçəndə biz də onlara qoşulub Ağbulağa yollanırdıq. Kəndə çatanda bütün müəllim və məktəblilər yorulub əldən düşmüş olurdu. Çünki yollar çox bərbad idi. Naxçıvandan Ağbulağa qədər, bəlkə də, saat-yarımlıq yol idi. Kəndin dolanbac yollarını avtobus "iməklə-yə-iməkləyə" qalxırdı. Düşərgənin əsas binası kənd məktəbində yerləşirdi. Məktəb də ki, nə məktəb. Köhnə, təmirsiz... O zamanlar ayaqlı dəmir çarpayılar var idi. Bir də görürdük ki, çarpayının bir tərəfi qalxıb, digər tərəfi enib. Baxırdıq ki, çarpayının ayağı döşəmədəki çürük hissədən içəri keçib. Yeməkxana məktəbin balaca bufetinin kiçik zalında yerləşirdi. O zamanlar su, kanalizasiya şəraiti olmadığına görə burada mətbəx tamamilə primitiv şəkildə qurulmuşdu. Kəndə gəzintiyə çıxırdıq. Günortaya tozun-torpağın içərisində düşərgəmizə qayıdırdıq. Dəfələrlə daşlı-çınqıllı yollarda elə yıxılırdıq ki, həkim və tibb bacısı dizlərimizdən daşları qan axa-axa təmizləyirdilər. Uşaq idik, əyləncə axtarırdıq, qaçırdıq, atılıb-düşürdük, oynayırdıq, kim idi şəraitsizliyi fikirləşən. Lakin bu günün prizmasından baxanda çox mətləblərin fərqində olur insan... Evə qayıdanda məhəllədə uşaqlarla birlikdə xatirələrimizi bölüşürdük. Məhəllədən Ukraynanın o zamanlar üçün çox məşhur olan "Artek" pioner düşərgəsinə gedən uşaqlar olurdu. Onlar xatirələrindən, gəzib-gördükləri yerlərdən söhbət açanda biz danışmağa utanırdıq. Bu dəfə kiçik olsaq da, fərqi çox yaxşı analiz edə bilirdik, çünki gördüklərimizlə yoldaşlarımızın nağıl etdikləri arasındakı fərq müqayisə edilməyəcək dərəcədə idi. Biz də çox arzulayırdıq "Artek"ə getməyi. Lakin qismət... Hər yay arzularımız xəyal olub gerçəkdən çox uzaqlarda bizimlə baş-başa qalanda yenə də Ağbulağa üz tutur, olanımıza qane olmağa çalışırdıq.

### *"Artek"dən Ağbulağa... xəyaldan gerçəyə...*

7 il əvvəl işimlə bağlı Ağbulağa tez-tez getməli olurdum. Bu o zaman idi ki, blokada Naxçıvanının hər bir ucqar kəndi kimi, Ağbulaq da öz miskin donunu təzələyirdi. Burada Sovetlər Birliyindən qalma köhnə, yararsız məktəb binası yenisi ilə əvəz olunurdu. O məktəb ki bizim düşərgə vaxtından 20-30 il də keçirdi və bu bina daha da yararsız vəziyyətə düşmüşdü. Kənd və xidmət mərkəzləri tikilirdi ki, bu, insanlar tərəfindən möcüzə kimi qarşılanırdı. Çünki o vaxt kənd mərkəzləri yeni bir infrastruktur kimi Naxçıvanda qurulurdu. Burada xidmət təşkilatlarının birgə fəaliyyət göstərəcəkləri insanlara nağıl kimi maraqlı gəlirdi. Onlar illərlə kəndin bərbad yolları ilə rayon mərkəzinə – hakimə, evlərinə ərzaq almağa, hansısa bir sənəd ardınca gedərkən bir gün bütün bunların dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən kəndlərinə – düz evlərinə qədər gələcəyini xəyal belə, etmirdilər. O bərbad yollar kəndin coğrafi mövqeyi çətin olduğu üçün qarış-qarış yeniləşdirilirdi. Nədənsə, bu kəndə hər dəfə getdiyimdə həmin o pioner düşərgəmiz gözlərim önündə canlanır, məhəllə uşaqlarının "Artek" təəssüratları qulaqlarımda təzələnirdi. Bu kənd, sanki mənim və o zaman həmin sözləri dinləyən uşaqların xəyal yerimiz idi. Lakin mənim o uşaqlardan bir fərqim bu idi ki, burada aparılan quruculuq işlərini, muxtar respublika rəhbərinin dəfələrlə kəndə gəlməsini, burada qurulanların planı, tikilişi ilə maraqlanmasını, inşaatçılara yeni fikirlər, göstərişlər verməsini anbaan izləmək qismətimdə vardı. Beləliklə, kənd gözlərim önündə yeniləşdikcə illər öncənin Ağbulağı xatirələrə çevrilir, Naxçıvanın dünəni ilə bu günü fonunda bir bölgənin müqayisəsini yaradırdı. Bu həm də o zaman idi ki, illərlə əl dəyməyən təbii resursumuza doğru artıq addım atılmışdı. Burada



istirahət mərkəzinin tikintisi mənim xəyalımda da, gözlərimdə də "Artek"i Ağbulağa gətirirdi. Uşaqlıq düşüncələrimizə möcüzələr diyarı kimi köklənmiş "Artek"i...

### *Ağbulaq dünən və bu gün*

Ağbulaq Şahbuzun xüsusi gözəlliyə malik bölgəsidir. Dağların köksünə bərqərar olan bu ərazi ətrafdakı kəndləri öz ovcuna almaq qüdrətindən yaradılıb. Ağbulaqdan Aşağı Qışlaq kəndinə baxarkən bu kənd, sanki Ağbulağın "ovcunun" içində durarmuş kimi təsir bağışlayır adama. Kolanıdan Ağbulağa baxanda isə özünü dağların zirvəsinə sığdıran bir məkanı seyr edirsən. Təbiətin misilsiz gözəlliklərindən yetərincə pay alan Ağbulaq saymaqla bitməyən əsrarəngizliyə malikdir. Biçənək aşırımını keçib kəndə üz tutarkən maşın dolanbac yollarla, sanki yerin yeddi qatından zirvələrə doğru yolçuluğa çıxır. Adama elə gəlir ki, torpaqla səmanın "əllərinin" bir-birinə dəydiyi anda kəndə çatmış olursan. Bax belə bir gözəlliklər məkanıdır Ağbulaq. Bu gözəlliyin fonunda dünəninin miskinliyi heç Ağbulağa yaraşan deyildi. Təbii gözəlliklərlə insan əllərinin yaratdıqları harmoniya təşkil etmirsə, təbiət öz gözəlliyini göstərməkdə aciz qalır. Mən bu fikrə





kəndlərimizin dünəni ilə bu gününü müqayisə edərək gəlmişəm. Elə bütün bunlara görə də 2013-cü ildə burada kompleks quruculuq işlərindən sonra obyektlərin açılış mərasimində iştirak edənlərdən biri kimi böyük qürur hissi keçirirdim. Yəni bu kənd o kənd idimi? Bu yollar o yollar idimi? O məktəb, o mağaza dünənkilərlə müqayisə edilə bilərdimi? Hələ, üstəlik, buradakı istirahət mərkəzi xəyal ediləcək bir obyekt idimi? İnsanlar da həmin insanlar deyildilər. Onların üzləri gülürdü. Miskin kəndlərinin simasındakı yeniliklərdən yaranan sevinc hissi sakinlərin üzlərində günəş şəfəqləri kimi bərq vururdu. Çünki onlar çox yaxşı anlayırdılar ki, pis günlər arxada qaldı. Yağış yağarkən övladları sinifdə oturduqları yerdəcə islanmayacaqlar, ərzaq dalınca kilometrlərlə məsafə qət etməyəcəklər, müayinə olunmaq üçün yolxərci verməyəcəklər, hansısa bir arayış üçün rayon mərkəzinə enməyəcəklər. Üstəlik, kəndin zəhmət adamları onu da yaxşı bilirdilər ki, yeni istirahət mərkəzi onların təsərrüfatlarında istehsal etdiklərini realizə etmək üçün əlverişli vasitə olacaq və onlar Naxçıvan şəhərindəki bazarlara üz tutmaqla yox, qapılarının ağzındaca gəlir əldə edə biləcəklər.

### *Ağbulaq istirahət mərkəzində bir gün*

Bu istirahət mərkəzi heç də qapılarını tək turistlərə, qonaqlara açmadı. Buranın ilk sakinləri Ali Məclis Sədrinin tapşırığı ilə təhsildə və fəaliyyətində fərqlənən naxçıvanlı şagirdlər, gənclər, tələbələr oldular. Bu, indi də bir ənənə olaraq davam etdirilir. Elə istirahət mərkəzində bir gün ərzində müşahidə etdiklərim qarşısında o qədər munis hisslər yaşamışdım ki... 2015-ci il idi. Ağbulaq İstirahət Mərkəzi məktəblilərə birhəftəlik yenə də qapılarını açmışdı. Övladım da onlar arasında idi. Onu görmək üçün mərkəzə getmişdim. Yayın cırhacır istisindən xəbərsiz olan kəndin qoynunda yerləşən mərkəz yeniyetmə və gənclərin səs-küyü ilə maraqlı istirahətə və əyləncəyə çağırış edirdi, sanki. Burada əyləşdiyim yerdən vaxtilə pioner düşərgəsinin yerləşdiyi, indi isə ondan əsla iz belə, qalmayan yer açıqca görünürdü. Bəli, izi qalmasa da, hər dəfə o tərəfə baxdıqda elə bil o məktəbi, o həyəti görürdüm. Gördükcə də müqayisə edir, yenə də məhəllə uşaqlarının "Artek" təəssüratlarını xatırlayırdım. Buradakı gördüklərim məhəllə uşaqlarının "Artek"də görüb sadaladıqlarından qat-qat artıq idi. Biz "Artek"ə gedən, orada istirahət edən gənclərdən olmasaq da, Ağbulaq İstirahət Mərkəzi ilə "Artek"i bizə bəxş etmişdi dövlətimiz. Məni ən çox qürurlandıran isə o uşaqlıqla bu uşaqlığın, o gəncliklə bu gəncliyin müqayisəsi fonunda övladlarımızın bizim məhrum olduqlarımızı evlərinin içindəcə əldə etmələri olmuşdu. Buna nə qədər qürurlanmışdımsa, bu istirahət mərkəzini yaradanlara o qədər minnətdarlıq hissi duymuşdum.



### *Ağbulaq – Naxçıvanın dörd fəsil turizm ilki*

***"Turizm sahəsi həm regionların inkişafı, həm də ki ölkənin iqtisadi potensialının möhkəmləndirilməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm vasitədir"***, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin vacib və lazımı tövsiyələrinə blokada Naxçıvanında turizmlə bağlı görülən işlər böyük töhfədir. Bəli, Naxçıvan Ağbulaq turizmi ilə dünyaya inteqrasiya edəcəkdir. Bu, artıq xəyal yox, gerçəklikdir.

İki gün öncə Ağbulaq Xizək Mərkəzinin istifadəyə verilməsi ilə xəyalən "Artek"ə getməyim bu yazını yazmağıma vəsilə oldu. Yenə o xatirələr, yenə o müqayisələr... Lakin bu dəfə müqayisələr xatirələri üstələdi. O mənada ki artıq Ağbulaq ikinci bir turizm növünə – dağ-xizək turizminə qucaq açırdı. Əgər yay turizmini sevənlər Ağbulağın gözəlliyini kəşf edib evlərinə qayıdırdılarsa, xizək mərkəzi yay turizmi üçün buranı seçənlərin qış istirahəti üçün məhz buraya qayıtmaları deməkdir. Beləliklə, Naxçıvanda ilk mövsümsüz turizm məkanı yaranır. Maraqlıdır, dörd fəslin turizm məkanı olan Ağbulaq, sən demə, vaxtilə toxunmadıqca yatan, yazda, baharda da qış yuxusundan doymayan bir resurs olaraq qalırdı. Necə ki, müstəqilliyimiz ilə yaşıd olan Naxçıvan blokadasının ilk acınacaqlı illərində qaranlıq, ərzaq və əkinəyararlı torpaq qıtlığı təbii resurslarımıza doğru gedildikcə insanların yollarını işıqlandırdı, enerji və ərzaq təhlükəsizliyinə, əkinəyararlı torpaqlara sahibləndirdi, Ağbulaqdakı təbii resurslara illər öncədən gedilincə də bu gün dünyanın ən məşhur turizm bölgələri ilə bir sırada dayanan turistik məkan yaradıldı. Bu məkan bir sərvət, xəzinədir. Ölkəmizdə zamanla mənfəət gətirəcək bir xəzinə. Ali Məclis Sədrinin mərkəzin açılış mərasimində vurğuladığı kimi: ***"İki il ərzində qurulan dağ-xizək mərkəzi bu gün muxtar respublikanın sərvətinə çevrilib. Bir sözlə, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması tək bir kəndin, muxtar respublikanın deyil, ölkəmizin inkişafına xidmət edəcəkdir".***

**Mətanət MƏMMƏDOVA**

## Vaksinasiyanın ilk mərhələsi başa çatıb

***"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün vaksinasiya strategiyası"na müvafiq olaraq muxtar respublikanın səhiyyə müəssisələrində də ardıcıl tədbirlər həyata keçirilir.***



Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində xüsusi komissiya fəaliyyət göstərir. Xüsusi işçi qrupu tərəfindən həyata keçirilən peyvənd ilkin mərhələdə risk qrupuna daxil olan şəxslərə vurulur.

Artıq Naxçıvan şəhərinin tibb müəssisələrində, o cümlədən rayonlarda səhiyyə işçiləri arasında COVID-19 xəstəliyinə qarşı vaksinasiyanın ilk mərhələsi başa çatıb. Rayon mərkəzi xəstəxanalarının, gigiyena və epidemiologiya şöbələrinin, kənd sahə xəstəxanalarının, həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin də tibb işçiləri "Sinovac" vaksini ilə peyvəndlənib. Bütövlükdə, 3 min 500 nəfər tibb işçisi vaksinasiya edilib. Təhlükəsizliyinə və effektivliyinə görə seçilən bu vaksinasiyada heç bir narahatlıq müşahidə olunmayıb.

Qeyd edək ki, peyvəndin birinci dozası vurulduqdan 21-28 gün sonra ikinci doza vurulur.

***Naxçıvan Muxar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

İnkişaf edən bölgələrimiz

# Uğur estafetinin daha bir ili tarixə öz nailiyyətlərini yazıb

*Bir qərinədən də az olan zaman kəsiyində qədim diyarımız, sanki yüzillik yol keçib. Bu reallığı dünənimizi görənlər daha dolğun müqayisə edə bilərlər. Bu məqamda Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədovanın "Naxçıvan blokadası" ikicildliyində özünə yer almış yazıların birində dediyi: "Bugünkü nəsil elə bilir ki, Naxçıvan əzəldən belə olub" fikrini xatırlatmaq yerinə düşər. O dövrü yaşayanların, görənlərin isə həmkarımızın fikrinə öz münasibətlərinin birmənalı olması şəksizdir: Dünənki Naxçıvanla bugünkü Naxçıvan arasında yerlə göy qədər fərq var. Təbii ki, söhbət təkcə paytaxt şəhərimizdən getmir; bugünkü tərəqqi və inkişaf muxtar respublikanın hər bir guşəsini, həyatımızın hər bir sahəsini əhatə edir. Dünən ucqar bir əyalət təsiri bağışlayan məmləkətdən tərəqqi və inkişafa nail olan, müasirliyə qovuşan indiki Naxçıvan kərpic-kərpic, bina-bina, kənd-kənd yenidən qurulub. Min bir zəhmətlə qurulub. Dünənə ehtiram, sabaha cavabdehlik hissindən qurulub. Bu gün istənilən yurd yerimizə yolumuz düşsə, tərəqqi və inkişafın ifadəsi olan gözəlliklərin ovsunu bizi bir anda öz ağuşuna alacaq. Şərur rayonu da eləcə. Bu rayonun da dünəni ilə bu gününü müqayisə etməyə dəyməz. Çünki bu, mümkünsüzdür.*






...Hər fəsildə özünəməxsus gözəlliyi olan Şərur qış donundadır. Bu, zahirən belədir. Belə ki, rayonda qaynar həyat ritmi hakimdir. Bir neçə amillə bağlı məqamlar qaynar həyatın real ifadəsidir. Bu sırada ilk olaraq Azərbaycan yaşadıqca həmvətənlərimizin də yaşadığı Böyük Qələbəmizi qeyd etmək lazımdır. Azadlıq mücadiləsində bu qədim yurd yerinin igid oğulları da qəhrəmanlıq göstəriblər. Şəhidlik zirvəsinə ucalmış şərurluların 29-u rayonda, bir neçəsi paytaxt Bakı şəhərində torpağa tapşırılıb. Onların döyüş yolu, şücaətləri bu gün hər bir şərurlu gənc üçün vətənpərvərlik dərsidir. O da xüsusi qeyd olunmalıdır ki, bütün ölkəmizdə olduğu kimi, Şərurda da şəhid və qazi ailələri hərtərəfli qayğı ilə əhatə ediliblər. Belə qayğı hər birimizi ürəkdən sevindirir. Təbii ki, ərazi bütövlüyümüzün Qələbə ilə təmin edilməsi şərurluların da qurub-yaratmaq əzmini artırıb, yeni qazanılacaq uğurlara stimul olub. Elə 2020-ci ili götürək. Xatirələrini yaşadığımız ötən il Şərurda yeni inkişaf mərhələsinin tarixi də sayıla bilər.

... Bu gün ictimai-siyasi sabitliyin tam bərqərar olduğu muxtar respublikanın bütün bölgələri kimi, Şərurda da əmək intizamının, çalışdığın vəzifədə məsuliyyət hissinin yüksək səviyyədə olduğunu xüsusi vurğulamağa ehtiyac yoxdur və sadəcə, bəzi statistik rəqəmləri oxucuların diqqətinə çatdırmaq yerinə düşər.

### Quruculuq ünvanlarının coğrafiyası genişlənir

Bəhs olunan dövrdə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 80 milyon 194 min 800 manat vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş vəsaitin həcmi 1,9 faiz artaraq 76 milyon 737 min 600 manat təşkil edib. Həmin vəsait müxtəlif quruculuq tədbirlərinin aparılmasına sərf edilib. Həyata keçirilən bütün belə tədbirlərdə keyfiyyət amilinə ciddi önəm, yerli tikinti materiallarından istifadəyə üstünlük verilib. Bu dövrdə 77 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub. 33 müxtəlif təyinatlı obyektin tikintisi, əsaslı təmiri və ya yenidən qurulması davam etdirilib. Göründüyü kimi, 110 ünvanda çalışanların iş şəraitinin yaxşılaşdırılmasının təmin edilməsi diqqət mərkəzində saxlanılıb. Şərurlular bütün bunları onlara göstərilən yüksək qayğı kimi dəyərləndirirlər. Yeri gəlmişkən, sovet dönəmində muxtar respublikada heç 10 il ərzində bu həcmdə tikinti işi həyata keçirilməyib. Quruculuq tədbirlərindən biri ölkə Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən müxtəlif istehsal sahələri üzrə fəaliyyət göstərəcək Şərur Sənaye Məhəlləsində tikinti işlərinin sürətlə davam etdirilməsidir. Bu obyektin yaradılması sənaye sahəsində kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsində mühüm rol oynamaqla bərabər, ixracın və rəqabət qabiliyyətinin artırılmasına gələcəkdə öz töhfəsini verəcəkdir. Ötən il obyektdə 3 istehsal sahəsinin tikintisi davam etdirilib.



Bəhs olunan dövrdə Şərur şəhərində "Naxçıvanbank" ASC-nin Şərur rayon filialının inzibati binasının, Təqaüdçülər Klubunun, Mərasim Evi və dini icma üçün iş otaqlarının, Musiqili fəvvarənin, 4 yaşayış binasının əsaslı təmiri başa çatdırılıb. Rayonda Mədəniyyət Sarayının, zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan 40 mənzilli yaşayış binasının, Bayraq və Saat meydanlarının tikintisi, Şəhidlər xiyabanının, 1 yaşayış binasının, Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin və Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsin Şərur Rayon Şöbəsinin inzibati binalarının əsaslı təmiri və yenidən qurulması davam etdirilib. Belə tədbirlərdən kənd yaşayış məntəqələri də xeyli yararlanıb. Məmmədsabir, Muğancıq-Mehrab və Qarabürc kəndlərində aparılan kompleks abadlıq-quruculuq tədbirləri sözügedən kəndləri müasir görkəmə qovuşdurub. Həmin kəndlərdə tam orta məktəb binalarının, kənd və xidmət mərkəzlərinin, səhiyyə müəssisələrinin tikintisi və yenidən qurulması işləri başa çatdırılaraq əhalinin istifadəsinə verilib. Onların ardınca yeni ildə isə həmin quruculuq tədbirləri Şəhriyar kəndində həyata keçirilib.

Bu dövrdə "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində həyata keçirilən tədbirlərə də ciddi önəm verilib. Bu sırada Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin və Cəlilkənddə içməli su xəttinin tikintisinin başa çatdırılaraq əhalinin istifadəsinə verilməsini, Cəlilkənd, Yuxarı Daşarx və İbadulla kəndlərində olmaqla, 3 subartezian quyusu vurulmasını da xüsusi vurğulamaq lazımdır. Sözügedən layihə çərçivəsində Sərxanlı kəndində içməli su xəttinin çəkilişi davam etdirilib.

Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər muxtar respublikada da uğurla davam etdirilir. Ötən il Şərur rayonunda 3-cü və 8-ci Sərhəd zastavalarının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının Şərur əməliyyat taboru üçün yeni xidmət və yaşayış komplekslərinin istifadəyə verilməsi bunun ifadəsidir. Hazırda Ərəbyengicə kəndində yerləşən sərhəd zastavasında inşaat işləri yüksək keyfiyyətlə davam etdirilir. Bəhs olunan dövrdə hərbi hissələrin maddi-texniki bazası möhkəmləndirilib, hərbi qulluqçuların xidmət və məişət şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb.



### Bol məhsul istehsalı daxili bazarda yerli məhsulun çəkisini artırır

Rayonda sənaye sahəsinin inkişafına xüsusi önəm verilir. Bunun ifadəsidir ki, 2020-ci ildə 98 milyon 920 min 400 manatlıq sənaye məhsulu istehsal edilib. Bu isə daxili bazarda məhsul bolluğu yaradılmasına şərurluların töhfəsidir. Bu sahənin inkişafında xüsusi çəkiyə malik olan sahibkarlıq fəaliyyətinə yüksək dəstək göstərilib, 4 hüquqi və 578 fiziki şəxs qeydiyyata alınıb. Onların böyük əksəriyyəti sənaye fəaliyyəti ilə məşğul olanlardır.

Elə digər istehsal sahələrində də qazanılan uğurlardan geniş danışmaq olar. Bu dövrdə rayonda 165 milyon 509 min 300 manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu, ötən illə müqayisədə 4,9 faiz çoxdur. Rayonun məhsuldar torpaq sahələri burada əkinçiliyin müxtəlif sahələrinin inkişaf etdirilməsinə imkan verir. Bu baxımdan taxılçılıqda qazanılan uğurlardan geniş danışmaq olar. Şərurlu torpaq mülkiyyətçilərinin 2020-ci ildə taxıl zəmilərindən bol və yüksəkkeyfiyyətli məhsul götürmələrinin ifadəsidir ki, 2021-ci ilin məhsulu üçün 3 min 796 hektar sahədə payızlıq taxıl əkini həyata keçirilib. Yazda bu iş davam etdiriləcək. Əkinçiliyin inkişafında başlıca amillərdən biri kənd təsərrüfatı texnikaları ilə təchizatdır. Bunu nəzərə alaraq ötən il "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyəti tərəfindən hüquqi və fiziki şəxslərə 1 milyon 623 min manat dəyərində 84 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlar lizinq yolu ilə güzəştli şərtlərlə satılıb.

Bir məsələni də qeyd edək ki, bu gün Şərurda ən mütərəqqi təsərrüfat forması olan ailə təsərrüfatlarının yaradılması və onların fəaliyyətinə qayğı göstərilməsi diqqət mərkəzindədir. İlbəil belə təsərrüfatların sayı artır, onların istehsal etdikləri məhsulların qablaşdırılması, Naxçıvan və Şərur şəhərlərində təşkil olunan yarmarka və festivallara çıxarılması təmin edilir.

Muxtar respublikamızda ötən illərdən bəri davam etdirilən ekoloji siyasət diyarımızın təbii zənginliklərinin qorunmasında, xüsusilə yaşıllıq sahələrinin xeyli artırılmasında əhəmiyyətli rol oynayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində işlər davam etdirilib, aparılan genişmiqyaslı yaşıllaşdırma tədbirləri sayəsində rayonun siması tamamilə dəyişib. Belə tədbirlərdə 14,5 hektar sahədə yeni meyvə bağları salınıb, 12 hektar meyvə bağında isə bərpa işləri aparılıb. 75 mindən çox müxtəlif növ ağac tingləri və gül kolları əkilib. Sahibkarlar tərəfindən isə xüsusi mülkiyyətdə olan və həyətyanı torpaq sahələrində 47,32 hektar sahədə meyvə bağları salınıb.

Əhalinin ekoloji cəhətdən təmiz yerli meyvə-tərəvəzlərlə təmin edilməsində, xüsusilə kənd təsərrüfatı məhsullarının saxlanılmasında soyuducu anbarların və istixanaların mühüm rolu vardır. Əhalinin ilboyu təzə və keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunması üçün rayonun Arpaçay, Kosacan, Məmmədsabir, Siyaqut və Ələkli kəndlərində müasirtipli istixana kompleksləri, istehsal olunan meyvə və tərəvəz məhsullarının tələbatdan artıq hissəsinin saxlanılması üçün rayonun müxtəlif kəndlərində ümumi tutumu 6 min 680 ton olan 20 soyuducu anbar fəaliyyət göstərir.

Rayonda üzümçülüyün və tütünçülüyün inkişafı üçün ictimai marağın artmasına lazımi dövlət dəstəyi göstərilir. Bütün sahələrə olduğu kimi, tütünçülük sahəsinə də xüsusi diqqət yetirilib, 2,7 hektar sahədə tütün əkini aparılıb və quru halda 4 min 500 kiloqram məhsul əldə edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası üçün rayonda əlverişli şərait mövcuddur. Bölgənin təbii iqlim şəraiti və zəngin bitki örtüyü imkan verir ki, təsərrüfatın gəlirli bir sahəsi kimi arıçılıq təsərrüfatı davamlı inkişaf etdirilsin. Bəhs olunan dövrdə rayonda 4 arıçılıq təsərrüfatı yaradılıb, 1 arıçılıq təsərrüfatı genişləndirilib, 1 arıçılıq təsərrüfatının yaradılması davam etdirilib. Hazırda rayonda 586 arı təsərrüfatında 12 min 935 arı ailəsi vardır.

### Bu dövrdə digər sahələrdə də xeyli uğurlara nail olunub

Belə ki, rayon sakinlərinin nəqliyyat, informasiya-rabitə texnologiyalarının və energetika xidmətlərindən istifadəsinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlərin keçirilməsi davam etdirilib. Qarxun-Muğancıq-Mehrab-Məmmədsabir avtomobil yolunun, Təzəkənd-Qarabürc kəndlərində avtomobil yollarının yenidən qurulması, Yuxarı Daşarx kəndində fəaliyyət göstərən "Arpaçay" yanacaqdoldurma məntəqəsinin əsaslı təmiri başa çatdırılıb. Xanlıqlar-Şərur şəhəri-Yengicə-Dəmirçi, Xanlıqlar-Aşağı Daşarx-Siyaqut-Yuxarı Daşarx kənd avtomobil, Şərur şəhərində giriş və daxili avtomobil yollarının, Avtovağzal binasının və yeraltı piyada keçidinin yenidən qurulması davam etdirilib.

İnformasiya və rabitə texnologiyaları bu gün həyatımızın ayrılmaz tərkib hissəsidir. Bəhs olunan dövrdə bu istiqamətdə xeyli iş görülüb, əhaliyə göstərilən xidmətlərin səviyyəsi yüksəldilib. Bunun ifadəsidir ki, informasiya və rabitə texnologiyaları xidmətlərinin dəyəri 7 milyon 901 min 100 manat olub ki, bu da əvvəlki illə müqayisədə 3,7 faiz çoxdur.

Sirr deyil ki, muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadə əsas yer tutur. Bu sahədə görülən işlərin davamı kimi Şərur rayonunda enerji təhlükəsizliyinin tam təmin edilməsi üçün "Çomaxtur" yarımstansiyasının tikintisi başa çatdırılıb. Muğanlı və Maxta kəndlərində 35/10 kilovoltluq elektrik yarımstansiyalarının tikintisi, Şərur şəhərində yüksəkgərginlikli elektrik verilişi xətlərinin yeraltı tunel vasitəsilə çəkilişi davam etdirilib. 5 meqavatlıq Günəş Elektrik Stansiyasının tikintisinə başlanılıb.

Əhalinin məşğulluğunun artırılması insanların sosial müdafiəsinin təmin edilməsində başlıca amildir. Ona görə də rayonda bu məsələyə ciddi önəm verilir. İl ərzində rayonda 51 yeni iş yerinin açılması, mövcud yerlərdə insanların məşğulluğuna şərait yaradılması rayon sakinlərinə dövlət qayğısının ifadəsi kimi dəyərləndirilib.

Şərurda pensiya və müavinətlərin vaxtlı-vaxtında ödənilməsi razılıq doğurur. 2020-ci ildə pensiya və müavinətlərin ödənilməsinə 33 milyon 339 min manata yaxın vəsait yönəldilib.

Göstərilən qayğı rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrini də əhatə edib. Bu da öz bəhrələrini verib. Adıçəkilən sahələrdə xeyli uğurlar qazanılıb.

*2021-ci ilin ikinci ayını yaşayırıq. Qısaca nəzər saldığımız ötən ilin uğurları tam cəsarətlə deməyə imkan verir ki, illərin uğur estafetinin yeni mərhələsinə qədəm qoyan Şərur bu ili də yüksək nailiyyətlərlə başa vuracaq. Bunun üçün davamlı xarakter almış dövlət qayğısı, zəhmətə qəlbən bağlı olan bölgə sakinlərinin gündən-günə artan qurub-yaratmaq əzmi, onların həyat səviyyəsinə müsbət təsir göstərən məqsədyönlü tədbirlərin diqqət mərkəzində saxlanılması başlıca amillərdir.*

✍ **Muxtar MƏMMƏDOV**
**Elman MƏMMƏDOV**



Dövlət proqramı icra olunur

# Muxtar respublikada xalçaçılıq ənənələri qorunur

***Xalqımızın tarixi ənənələrini özündə yaşadan milli-mədəni sərvətlərimizdən biri kimi xalça sənəti hər zaman diqqəti cəlb edən sahələrdən olmuşdur. Təsadüfi deyil ki, ölkəmizə səfər edən məşhur tarixçilərin və tədqiqatçıların Azərbaycanla bağlı xatirələrini qələmə aldığı əsərlərində xalçalarımız haqqında məlumatlara xüsusi yer verilmişdir. Tarixboyu Azərbaycan xalçalarının şöhrəti ölkə sərhədlərini aşmış və mühüm sənətkarlıq nümunəsi kimi əvəzolunmaz simvola çevrilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev bununla bağlı demişdir: “Xalça bizim milli sənətimizdir. Biz hesab edirik ki, Azərbaycan xalça sənətinin Vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir”.***

Ölkəmizdə xalçaçılıq sənətinin ən yaxşı nümunələri sırasında Naxçıvan xalçaları, xüsusilə seçilmişdir. Özünəməxsus fərqləndirici cəhətlərə malik olan bu xalçalar Naxçıvan xalçaçılıq məktəbinin formalaşmasına səbəb olmuşdur. Muxtar respublikamızda Naxçıvan xalçaçılıq məktəbinin bərpası və öyrənilməsi daim diqqət mərkəzində saxlanılmışdır. 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyinin yaradılması, 2010-cu ildə muzeyin yeni bina ilə təmin





olunması bu sahəyə göstərilən dövlət qayğısının ən mühüm təzahürüdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın da əsas məqsədi xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması və davamlı inkişafıdır.

Proqramın icrası istiqamətində 2020-ci ildə “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində fəaliyyət göstərən Xalq Yaradıcılığı Emalatxanasında 20, Cəlilkənd buzxanasında 9 xalça toxunmuş, 14 xalçanın satışı həyata keçirilmişdir. Əvvəlki illərdə yaradılan əllə toxunmuş xalçaların reyestrinə 2020-ci ildə 50 xalça haqqında məlumat daxil edilmişdir.

Həyata keçirilən tədbirlər nəticəsində xalçaçılıq sənətinə marağın artması bu sahədə peşə təhsilinin və müvafiq kursların təşkili ilə bağlı tədbirlərin geniş vüsət almasına gətirib çıxarmışdır. Dövlət proqramında xalçaçılıq sahəsi üzrə sənətkarların bədii-texniki iş üsullarının öyrənilməsi, əllə xalçatoxuma sahəsində peşə təhsilinin dəstəklənməsi barədə tapşırıq nəzərdə tutulmuşdur. Bu istiqamətdə 2020-ci ildə “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində fəaliyyət göstərən Xalq Yaradıcılığı Emalatxanasında təşkil olunan kursda 7 müdavimə xalçaçılıq sənətinin sirləri öyrədilmişdir. Xalçatoxuma sahəsində kadr təminatının yaradılması və peşə təhsilinin dəstəklənməsi məqsədilə Dövlət Məşğulluq Agentliyi tərəfindən təşkil edilən xalçaçı kursunu 17 müdavim bitirərək sertifikat almışdır. Həmçinin Ordubad Texniki Peşə və Sürücülük Məktəbində 2019-cu ildən fəaliyyətə başlayan xalçaçı kursunu başa çatdıran 12 müdavim iyunun 12-də sertifikatla təmin edilmişdir. Həmin məktəbdə noyabr ayından fəaliyyətə başlayan kursda 15 müdavim təhsilini davam etdirir. 2020-ci ildə Şərur, Culfa və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq mərkəzlərində xalçaçılıq dərnəklərinin fəaliyyətə başlaması bu sahənin daha da genişləndirilməsinə şərait yaratmışdır.

Turizm sektorunun inkişafına təkan verən başlıca amillərdən biri ənənəvi sənətkarlıq sahələrinin özünəməxsusluğunun qorunması və bu fəaliyyətin nəticəsi olan məhsulların müxtəlif üsullarla nümayiş edilməsidir. Muxtar respublikamızda istehsal olunan sənətkarlıq nümunələrində ənənəvi cəhətlərin qorunması bu nümunələrin turizm məhsulu kimi təqdim edilməsinə imkan yaradır. Həmin məhsullar içərisində əllə toxunan xalçalar xüsusi yer tutur. Dövlət proqramında da Naxçıvan şəhərində və rayonlarda fəaliyyət göstərən xalçaçılıq emalatxanalarının turizm nümayiş obyekti kimi mədəni turizm marşrutlarına daxil edilməsi və Turizm İnformasiya Mərkəzi vasitəsilə xalçaçılıq irsinin təbliği barədə tapşırıq müəyyən olunmuşdur. Tapşırığın icrası istiqamətində 2020-ci ildə muxtar respublikada fəaliyyət göstərən turoperatorlara Naxçıvan-Sədərək marşrutu üzrə təşkil edilən turlara Cəlilkənd buzxanasında və Sədərək rayonunda fəaliyyət göstərən xalçaçılıq emalatxanalarının daxil edilməsi tövsiyə olunmuş və bu məqsədlə metodik köməklik göstərilmişdir. Həmçinin Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində, sosial şəbəkə hesablarında xalçaçılıq irsinin təbliği məqsədilə 85 məlumat paylaşılmışdır.

Xalçaçılıq sənətinin qədim tarixə və ənənələrə malik olmasını bu istiqamətdə aparılan tədqiqat işləri də sübut edir. Naxçıvan xalçaçılıq məktəbinin elmi cəhətdən araşdırılması bu sahədə unudulmaqda olan ənənələrin bərpasına şərait yaradır. Eyni zamanda tədqiqatlar nəticəsində əldə edilən məlumatlar xalçaçılıq irsinin təbliği üçün yeni imkanlar açır. Dövlət proqramının icrası məqsədilə Naxçıvan xalçaçılıq məktəbinin elmi cəhətdən araşdırılması davam etdirilmişdir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2020-ci il üzrə təsdiq olunmuş elmi-tədqiqat planına əsasən Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda “Naxçıvanda xalçaçılığın inkişaf tarixi” mərhələsi üzrə tədqiqat işləri aparılmışdır. Tədqiqatın nəticəsi kimi açıq dünya ensiklopediyası olan “Vikipediya”da toxuculuq sənəti haqqında məqalə yerləşdirilmişdir. Bölmənin əməkdaşları tərəfindən hazırlanan “Naxçıvan memarlıq abidələri və xalça nümunələri üzərindəki ornamentlərin oxşarlığı”, “Naxçıvan xalçaları üzərindəki həndəsi ornamentlər” başlıqlı məqalələr bir sıra internet portallarında yerləşdirilmişdir. “Naxçıvan xalçaları üzərindəki motivlər”, “Naxçıvanda milli geyim mədəniyyətinin formalaşmasında ipəkçiliyin rolu”, “Naxçıvan xalçalarında Əcəmi möhürü” adlı məqalələr çap edilmişdir. Eyni zamanda bölmənin əməkdaşları 7-8 avqust tarixlərdə Türkiyə Respublikasında keçirilən IV Beynəlxalq Mardin elmi araşdırmalar konqresində “Naxçıvan və Anadolu xalça və kilim motivləri” mövzusunda çıxış etmiş, konqresin məruzələr toplusu çap olunmuşdur. Dekabrın 1-də Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Azərbaycan xalçaçılıq sənəti” adlı dərs vəsaitinin təqdimatı keçirilmişdir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***“Naxçıvan xalçaları, sadəcə, xalça deyil, bunlar həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli nümunələrdir...”*** *Buna görə də Dövlət proqramında nəzərdə tutulan tədbirlərin qarşıdakı illərdə də uğurla həyata keçirilməsi Azərbaycan xalçaçılıq sənətinə əvəzsiz töhfələr bəxş edən Naxçıvan xalçaçılığının daha da inkişafına şərait yaradacaqdır.*

**“Şərq qapısı”**

# Vətən müharibəsi iştirakçıları ilə gənclərin görüşü olub



*Naxçıvan şəhərindəki “Görüş yeri” kafesində gənclərin Vətən müharibəsi iştirakçıları ilə görüşü təşkil olunub.*

Görüşün keçirilməsində məqsəd gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin yüksəldilməsi, Vətən müharibəsi haqqında daha çox məlumat əldə etməsi, onların müharibə iştirakçılarını daha yaxından tanımalarına şəraitin yaradılmasıdır.

Tədbiri giriş sözü ilə Gənclər və İdman Nazirliyinin şöbə müdiri İlahə Haqverdiyeva açaraq qeyd edib ki, 2020-ci ildə gənclərimizin qazandığı ən böyük uğur İkinci Qarabağ müharibəsində göstərdikləri şücaət və qazandığımız tarixi Qələbəmizdir. Bu Qələbə Ali Baş Komandanımızın qətiyyəti, böyük siyasi iradəsi, Azərbaycan əsgərinin gücü, gənclərimizin özləri üçün hər şeydən üstün tutduğu Vətən sevgisi ilə qazanıldı. 30 ilə yaxındır, işğal altında olan ərazilərimizin böyük, həm də strateji əhəmiyyətli hissələri ordumuzun qəhrəman övladlarının yüksək döyüş bacarıqları sayəsində azad olundu. Sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları zamanı Vətən uğrunda canını fəda edərək şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın, öz sağlamlıqlarını itirən qazilərimizin hər biri ilə fəxr edir, qürur duyuruq.

Görüş zamanı Əlahiddə Ümumqoşun Ordunun zabitləri, Vətən müharibəsi iştirakçılarından baş leytenant Cavidan Axundzadə, baş gizir Nail Eyvazov, gizir İmran Səfizadə çıxış edərək bildiriblər ki, İkinci Qarabağ müharibəsində hərbçilərimizin göstərdikləri qəhrəmanlıqlar ölkəmizdə və muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin nəticəsidir. Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə iştirak edib və qələbə sevincini yaşayıblar. Müharibə iştirakçıları döyüşlər barədə öz xatirələrini bölüşüb, Vətənin azadlığı və suverenliyi uğrunda istənilən anda bundan sonra da vuruşmağa hazır olduqlarını bildiriblər.

Sonra hərbçilər gənclərin suallarını cavablandırıblar. Tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Rəsm müsabiqəsi keçirilib

Naxçıvan Muxtar Respublikasında məhdud fiziki imkanlı gənclərin asudə vaxtının səmərəli təşkili, onların sərbəst yaşayış imkanlarının artırılması, istedadlarının üzə çıxarılması istiqamətində keçirilən tədbirlər diqqət mərkəzində saxlanılır. Həmin tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə müvafiq kateqoriyadan olan gənclər arasında “Qarabağ Azərbaycandır!” mövzusunda rəsm müsabiqəsi keçirilib.



Tədbirdə çıxış edənlər bildiriblər ki, bu gün muxtar respublikada həyata keçirilən kompleks sosial müdafiə tədbirləri sağlamlıq imkanları məhdud gəncləri də əhatə edir. Belə gənclərin yaradıcılıq əzminin stimullaşdırılması məqsədilə zəruri işlər həyata keçirilir. Qeyd olunub ki, görülən işlərin nəticəsi kimi, müvafiq kateqoriyadan olan gənclər arasında yaradıcılıq tədbirlərinə olan maraq artır və bu istiqamətdə uğurlu nəticələr müşahidə edilir. Çıxışlardan sonra müsabiqəyə start verilib. Qeyd edək ki, 10 müəllifin 33 rəsm əsərinin nümayiş etdirildiyi tədbirdə qaliblər diplom, fəxri fərman və hədiyyələrlə təltif olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Şahmat üzrə növbəti interaktiv dərs



*Naxçıvan Şahmat Mərkəzində “Yarımaçıq debütlər haqqında məlumat” və “Məsələ həlli” mövzularında növbəti interaktiv dərs keçilib. Dərsi beynəlxalq dərəcəli hakim Emin Hacıyev aparıb.*

Emin Hacıyev elektron şahmat proqramları, yarımaçıq debütlər və məsələ həlli ilə əlaqədar ətraflı məlumat verərək bildirib ki, müasir şahmatın öyrənilməsində elektron şahmat proqramlarından mütləq istifadə etmək lazımdır. *“Lichess.org”*, *“chess.com”* kimi internet səhifələrindən istifadə bu gün muxtar respublika məktəblərində geniş tətbiq olunur. Bundan başqa, Naxçıvan Şahmat Federasiyasının “YouTube” səhifəsində dərslər yerləşdirilib və eyni zamanda CD formasında məktəblərə çatdırılıb.

Məşğələ saat $11^{00}$-da ümumtəhsil məktəblərinin şagirdləri üçün, $12^{00}$-da isə ümumtəhsil məktəblərində şahmat fənnini tədris edən müəllimlər üçün keçirilib. Bununla yanaşı, saat $15^{00}$-da rayon şahmat məktəbləri ilə keçirilən interaktiv dərsdə muxtar respublika şahmatçılarının oyunları təhlil edilib. İnteraktiv dərs zamanı şahmatçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, interaktiv dərs muxtar respublikada 200-dən artıq təhsil müəssisəsində şagird və müəllimlər tərəfindən elektron lövhə vasitəsilə izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 151